# ASTARANIN İLK ŞƏHİD HƏRBİ HƏKİMİ

**Təngərüd kəndi gözəl, füsunkar təbiətə malikdir. Mavi Xəzərlə zümrüd meşəli dağların arasında yerləşir. Kənddə Əhliman Fərəməzovu hamı işgüzar, zəhmətkeş, halal insan kimi tanıyır. Sadə peşə adamıdır. Ustadır. Ömür-gün yoldaşı Gülnaz xanımla üç övlad böyüdüb, ərsəyə çatdırıb. Aysel və Elgün Astara Pedaqoji Kollecini bitirib. Ailənin yeganə oğlu Nurlan isə hərbi həkim peşəsini seçib. Astara mərkəzi xəstəxanasında işləyən bibisi Aygün xanım hələ orta məktəbdə oxuyanda bu sənəti ona sevdirib.**

Nurlan sonsuz arzularla Azərbaycan Dövlət Tibb Universitetinin hərbi tibb fakültəsinə qəbul olunub. 2015-ci ildə universiteti bitirib Gədəbəy və Qazax rayonlarında yerləşən hərbi hissələrdə tibb məntəqəsinin rəisi vəzifəsində işləyib. Milli ordumuzun əsgər və zabitlərinin sağlamlığı keşiyində dayanıb. Savadlı, bacarıqlı, qayğıkeş həkim kimi şəxsi heyətin hörmətini qazanıb. Cəbhə bölgəsində xidmətin çətinliklərinə baxmayaraq, mütaliəyə də vaxt tapır, tibbi ədəbiyyatı və yenilikləri müntəzəm izləyirdi.

Milli Qəhrəman, şəhid general Polad Həşimov və Tovuz döyüşlərində şəhidlik zirvəsinə ucalmış mayor Anar Novruzovla aralarında səmimi münasibət, dostluq əlaqələri yaranmışdı. Hər üçünü Vətən məhəbbəti, müstəqilliyimizə, dövlətçiliyimizə bağlılıq, sədaqət hissləri birləşdirirdi. Nurlan generalın ölümündən çox sarsılmışdı. Zabit yoldaşına deyib ki, əgər mən də şəhid olsam, şəklimi Polad Həşimovun şəklinin altında qoyarsınız.

Tibb xidməti baş leytenantı Nurlan Fərəməzov 2020-ci ilin avqust ayında səhhəti ilə əlaqədar ordudan tərxis edilib. Təhsilini Almaniyada davam etdirmək üçün gecə-gündüz oxuyur, alman dilini öyrənirdi. Təhsilini başa vurub Vətənə qayıtmaq, el-obaya xidmət etmək, ailə qurmaq arzusunda idi.

Vətən müharibəsinin başlanması xəbərini eşidəndə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Astara rayon şöbəsinə müraciət edir. Sentyabrın 29-da cəbhəyə yola düşür. Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə ön sıralarda olub. Yaralıları odun-alovun içindən çıxarıb yardım edir, təcili yardım maşını ilə hospitala yola salırdı. Bəzən də əlinə silah alıb namərd düşmənlə döyüşə girirdi. Cəbrayıl uğrunda gedən döyüşlərdə neçə-neçə yaralıya ilkin tibbi xidmət göstərdi. Özü də qəlpə zərbəsindən ağır yaralandı. Oktyabr ayının 9-da əbədiyyətə qovuşdu.

Doğma Təngərüd kəndində torpağa tapşırıldı. Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ağsaqqallar, ziyalılar, gənclər, rayon və kənd ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə böyük izdihamla son mənzilə yola salındı.

Yaxın qohumu, Lənkəran Dövlət Universitetinin baş müəllimi Azər Fərəməzovla Nurlanın ata ocağına baş çəkdik. Yaraşıqlı, ikimərtəbəli evin həyətində atası Əhlimanla görüşdük. Bizi ikinci mərtəbəyə Nurlanın otağına dəvət etdi. Nurlanın şəkilləri, diplom və vəsiqələri, şəxsi əşyaları səliqə ilə stolun üstünə düzülmüşdü. Divardan hərbi geyimdə iri portreti asılmışdı.

Nurlan müstəqil Azərbaycanı canından artıq sevirdi, - deyə atası Əhliman söhbətə başladı. Vətənin çətin, ağır günündə kənarda qala bilməzdi. Cəbhəyə getməyi özünə borc bilirdi. Döyüşlərdə onlarla xəstəni ölümdən xilas etmişdi. Yaralı əsgərə yardım edərkən özü də qəhrəmancasına həlak oldu. Nurlanın itkisi olduqca ağırdır. Sağ olsun hörmətli Prezidentimiz, Ali Baş Komandanımız. Şəhidlərin qanını yerdə qoymadı. Torpaqlarımız işğaldan azad edildi. Nurlanın xidmətləri möhtərəm Prezidentimizin sərəncamı ilə "Vətən uğrunda" medalına layiq görüldü.

Bibisi Aygün Fərəməzova Nurlan haqqında kövrək xatirələrini dilə gətirdi: "Savadlı, bilikli, bacarıqlı hərbi həkim kimi nüfuz qazanmışdı. Əsgərlərə qardaş məhəbbətilə yanaşır, qayğı göstərirdi. Hərbi hissədə xidmət etsə də mülki vətəndaşlar yaxşı həkim olduğu üçün ona müraciət edirdilər. Hippokrat andına sadiq qalaraq hamıya kömək edirdi. Çox vətənpərvər idi. Azərbaycanın suverenliyi, torpaqlarımızın namərd düşməndən azad edilməsi yolunda ölümə getməyə hazır idi. Elə bu yolda da uca məqama yüksəldi. Astaranın ilk şəhid hərbi həkimi oldu. Gözəl siması, nurlu çöhrəsi, mənalı baxışları daim gözümün önündədir. Onun adını yaşatmaq, xatirəsini əbədiləşdirmək valideynləri, doğmaları, qohumları üçün bir ümid, təsəlli olardı".

Bacısı Aysel xanım dedi ki, Nurlan ona həm qardaş, həm də arxadayaq olub. Uşaqlıqdan çox səmimi, mehriban, qayğıkeş olub. İdmanı, xüsusən futbolu çox sevirdi. Hər dəfə məzuniyyətə gələndə qohumlara baş çəkir, bizi Astaranın, Lənkəranın görməli yerlərinə aparırdı. Nurlan kimi igid, mərd, vətənpərvər qardaşımla fəxr edirəm. Bu gün Nurlan təkcə Astaranın deyil, bütün Azərbaycanın fəxridir. Qızım Nazlı orta məktəbdə oxuyur. Dayısı haqqında yazdığı inşada Vətən eşqinin Nurlanı Qarabağın harayına çatdırdığını, 28 yaşında ölümü



ilə ölməzliyə qovuşduğunu çox təsirli detallarla qələmə alıb.

Astara Rayon Təhsil Şöbəsinin metodisti Vüsal Bayramov Nurlanla orta məktəb illərində tanışlığından, Bakıda universitetdə oxuyarkən müntəzəm görüşdüklərindən, onun Vətənə, torpağa bağlılığından söhbət açdı. Vətən müharibəsində şəxsi igidlik, şücaət göstərdiyini, hərbi həkim kimi vəzifə borcunu layiqincə yerinə yetirdiyini söylədi.

Təngərüd kənd tam orta məktəbinin direktoru Xaqani Mahmudov söhbət zamanı Nurlanın çox sakit, təmkinli, tərbiyəli şagird olduğunu, məktəbdə yüksək qiymətlərlə oxuduğunu, doğma kəndin, rayonun adını həmişə uca tutduğunu bildirdi. Nurlan kimi igidlərin, qəhrəmanların ömür yolunun gənc nəslə əsl vətənpərvərlik nümunəsi olduğunu, məktəbdə onun həyat yolunu əks etdirən stendin hazırlandığını dedi.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalında bölmə rəisi işləmiş tibb xidməti polkovnik-leytenantı Şamo Abbasov Nurlanı tələbəlik dövründə tanıdığını, peşəsini dərindən öyrənməyə çalışdığını, biliyi, qabiliyyəti ilə tələbələrdən seçildiyini bildirdi. Qısa olsa da şərəfli zabit, həkim ömrünü ləyaqətlə yaşadığını, həyatda layiqli iz qoyduğunu vurğuladı.

Tibb universitetinin hərbi tibb fakültəsinin dekan müavini olmuş, istefada olan tibb xidməti polkovnik-leytenantı Fərhad Mirxudayev dedi: "Nurlan nümunəvi, qabaqcıl tələbəmiz olub. Çox tərbiyəli, mədəni gənc idi. Tələbələr və müəllimlər xətrini çox istəyirdilər. Hamı vətənpərvərlikdən danışa bilər, Nurlan isə könüllü müharibəyə gedərək əməlləri ilə bunu sübuta yetirdi".

Nurlan Fərəməzov cəmi 28 il yaşadı. Arzuları yarımçıq qalsa da yaddaşlarda özünə əbədi heykəl ucaltdı. Bugünkü və gələcək nəsillər onun qəhrəmanlığını heç vaxt unutmayacaqlar.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**